**Azərbaycan Respublikası ümumvətəndaş pasportunun rəsmiləşdirilməsi üçün tələb olunan sənədlər:**

1. Səfirliyin adına ümumvətəndaş pasportunun rəsmiləşdirilməsi ilə bağlı əl ilə yazılmış ərizə-müraciət – *Ərizənin nümunəsi aşağıda əlavə olunur.*

Ərizədə aşağıdakılar öz əksini yapmalıdır:

a) Vətəndaşın soyadı, adı, atasının adı;
b) Yaşadığı ünvan və telefon nömrəsi;
c) Neçənci ildən Kanadada yaşaması və ölkəyə gəlmə səbəbi (daimi yaşayır, müqavilə əsasında çalışır, tələbədir)
d) Yeni ümumvətəndaş pasportunun rəsmiləşdirilməsi səbəbi (pasportun etibarlılıq müddətinin bitməsi, 18 yaş tamam olması);
e) Azərbaycan Respublikası vətəndaşlığından çıxıb-çıxmaması və ya vətəndaşlıqdan çıxmaq üçün müraciət edib-etməməsi;
f) Ümumvətəndaş pasportunun rəsmiləşdirilməsi ilə bağlı dövlət rüsumunun Azərbaycanda yaşayan qohumu və ya tanışları tərəfindən ödəniləcəyi barədə zəmanət
g) Etibarlılıq müddəti bitmiş pasport müəyyən səbəblərdən vətəndaşa lazım olarsa, bu barədə qeyd olunmalıdır.

2. Etibarlılıq müddəti bitmiş pasportun əsli və 2,3,4,5-ci səhifələrinin surəti – 2 nüsxədə

3. Pasport üçün rəngli (donuq – mat) fotoşəkil, 3×4 ölçüdə - 4 ədəd (şəxsin adı, soyadı fotoşəkillərin arxasına yazılmalıdır. 18 yaşına çatmış və ilk dəfə pasport alan vətəndaşlar şəkillərdən birini notariusda təsdiq etdirməlidirlər).

4. Şəxsin ölkədə daimi yaşadığını (Permanent Resident Card) təsdiq edən vəsiqənin notarial təsdiq olunmuş surəti – 2 nüsxədə (yalnız biri təsdiq olunur)

- Belə bir vəsiqəyə malik olmayan vətəndaş ölkədə işlədiyi və ya təhsil aldığı haqda arayış təqdim etməlidir.
- Vəsiqənin və arayışın tərcüməsinə ehtiyac yoxdur.

5. Ərizə-anket (Əlavə 1) – 2 nüsxədə

- Hər iki nüsxə əllə doldurulur, ərizəçi ərizə-anketin birinci (1.9-cu bənd) və ikinci (16-cı bənd) səhifəsində imza atır və Ottava şəhəri istisna olmaqla Kanadanın digər şəhərlərindən daxil olan bütün ərizə-anketlərdəki imzalar mütləq nortarial qaydada təsdiq olunmalıdır. Təsdiq haqqında qeydin 1-ci səhifənin yuxarı sol küncü və 2-ci səhifənin aşağı sol küncündə vurulması arzu olunandır.

6. Forma 118A (Əlavə 2) -  1nüsxə (bu formada imza atılmır)

7. 40$ ABŞ dolları məbləğində money order (rüsum Səfirliyin adına yazılır – Pay to the order of Embassy of Azerbaijan)

8. 40 AZN manat məbləğində rüsum ərizəçinin Azərbaycanda yaşayan qohum/tanışları tərəfindən Daxili işlər Nazirliyinin Pasport-Qeydiyyat İdarəsinin xəzinədarlığında ödənilməlidir və ödəniş qəbzi mütləq Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinə təhvil verilməlidir. Pasportun rəsmiləşdirilməsi - ödənişin gecikməsi ilə əlaqədar gecikə bilər.

- AR-da heç bir qohumu olmadığı təqdirdə, vətəndaş Səfirliyin konsulluq şöbəsinə müraciət edərək, ödənişin aşağıdakı bank hesabına köçürmək niyyəti haqqında məlumat verməlidir.

| | |
|---|---|
| **Beneficiary name:** | **Treasury Department of Central Government Organizations (MOXI)** |
| **Beneficiary address:** | **67 Nizami Str., Baku, AZ1005** |
| **Account number of receiving bank:** | **COR 328518 USD 3211-01** |
| **Receiving bank SWIFT Code:** | **IBAZAZ2X.** |
| **Receiving bank name:** | **International Bank of Azerbaijan, Head Office -Baku** |
| **Type of currency:** | **Equivalent of AZN in USD** |

9. Ödənilmiş zərf – Prepaid return envelope (zərfin üzərində ünvan yazılmalıdır)

- Keçmiş SSRİ pasportlarına malik AR vətəndaşları AR ümumvətəndaş pasportunun rəsmiləşdirilməsi üçün müraciət etdikdə, qeyd olunan sənədlərlə yanaşı, qan qrupu haqqında arayış təqdim etməlidirlər.

18 yaşına çatmamış uşağın valideynin pasportuna daxil olunması üçün aşağıdakı sənədlər əlavə olunmalıdır:

- doğum haqqında şəhadətnaməsinin surəti – 2 nüsxədə (1-i notarial təsdiq olunmalı)
- uşağın pasport üçün donuq (mat) 3×4 ölçüdə fotoşəkli– 2 ədəd (şəkillərin göstrərilən olçüdə və donuq olması mütləq şərtdir), şəklin arxasına adı yazılmalı
- atanın pasportuna daxil edilmək üçün ananın notarial qaydada təsdiq olunmuş rəsmi razılığı
- ananın pasportuna daxil edilmək üçün atanın notarial qaydada təsdiq olunmuş rəsmi razılığı
- valideynlərdən birinin vəfatı və ya valideynlərin nikahının pozulduğu təqdirdə, müvafiq sənədin surəti – 2 nüsxədə (notarial təsdiq olunmuş tərcüməsi ilə)

18 yaşı tamam olmuş və ilk dəfə olaraq pasport üçün müraciət edən vətəndaşlara pasport rəsmiləşdirilməsi üçün tələb olunan sənədlər:

- vətəndaşın yuxarıda qeyd olunan formada əllə yazılmış ərizə-müraciəti
- ərizə-anket forması – 2 nüsxədə
- rəngli donuq (mat) fotoşəkli – 4 ədəd
- doğum haqqında şəhadətnaməsinin surəti – 2 nüsxədə (1-i notarial təsdiq olunmalı)
- vətəndaşın valideynlərinin hər hansı birinin pasportuna yazılıbsa, həmin pasportun 2,3,4,5-ci səhifələrinin surəti

- qan qrupu haqqında tibbi arayış
- 40$ ABŞ dolları və 40 manat dövlət rüsumunun ödənilməsi ilə bağlı qeyd olunan tələblər
- Forma 118A

*Vətəndaş pasportunu itirdikdə və ya korlandıqda, pasportun itdiyi ərazinin polisindən müvafiq arayış alınır və pasportun itirilməsi barədə ərizə ilə Səfirliyə müraciət edir. Bu hallarda vətəndaşın cərimə ödəməsi də nəzərdə tutulmuşdur.

*Pasport oğurlandıqda, pasportun oğurlandığı ərazinin polisindən müvafiq arayış alınmalı və müvafiq ərizə ilə Səfirliyə müraciət olunmalıdır.

*Tələbələr yuxarıda qeyd olunmuş sənədlərə əlavə olaraq, həbir qulluq barədə sənədi və ya çağırış müddətinin uzadılması barədə arayışı da təqdim etməlidir.

*Göstərilən qaydada tərtib edilməyən və ya səliqəsiz hazırlanmış sənədlər baxılmadan geri qaytarılacaqdır.

* Səfirlik vasitəsilə pasportların rəsmişləşdirilməsi müddəti təxminən 1-2 ay təşkil edir.

**VƏTƏNDAŞIN ŞƏXSƏN ƏLI ILƏ YAZDIĞI ŞƏXSI ƏRIZƏSININ NÜMUNƏSI**
**(ŞƏXSI ƏRIZƏNIN YAZILIŞINA CIDDI RIAYƏT OLUNMASI XAHIŞ OLUNUR)**

Azərbaycan Respublikasının
Kanadadakı Səfirliyinə

Kanada, Ontario əyaləti
360 Gowan Ave., apt. 151
ünvanında yaşayan,
Əliyev Rüfət Mahir oğlu tərəfindən
Tel: +1.....

**Ərizə**

Mən, Əliyev Rüfət Mahir oğlu 2002-ci ildə Kanadaya (məqsədi göstərmək şərtilə) gəlmişəm və hal-hazırda Kanadada daimi (müvəqqəti) yaşayıram.

12.12.2002-ci il tarixindən etibarən Azərbaycan Respublikasının Kanadadakı Səfirliyinin konsul qeydiyyatındatam.

Azərbaycan Respublikası vətəndaşlığından çıxmaq ilə əlaqədar müraciət etməmişəm.

Pasportumun etibarlılıq müddəti (pasportumun itməsi və ya yararsız hala düşməsi ilə əlaqədar) bitdiyinə görə yeni pasportun rəsmiləşdirilməsində yardımçı olmağınızı xahiş edirəm.

Azərbaycan Respublikasında 26.03.2003-cü il tarixində AZE seriyalı 00005264 nömrəli şəxsiyyət vəsiqəsi almışam.

Pasportun rəsmiləşdirilməsi üçün nəzərdə turulan dövlət rüsumu Bakıda yaşayan qohumum (tanışım-adı, soyadı, həmçinin telefon nömrəsi göstərilmək şərtilə) tərəfindən ödəniləcəkdir.

***Qeyd:*** P***asportumun itirilməsi (və ya yarasız hala düşməsi) barədə verdiyim etibarnamə əsasında Azərbaycan Respublikası (əvvəllər qeydiyyatda olduğum yer üzrə) Bakı şəhəri, Nizami rayon Polis İdarəsindən alınacaq arayışı qohumum (və ya tanışım- adı, soyadı, atasının adı göstərilmək şərtilə) AR XİN-in Konsulluq İdarəsinə təqdim edəcəkdir.***

Tarix:

İmza: